*(Əvvəli ötən saylarımızda)*

# XÜSUSİ STATUSLU KİTAB

Nazir Əhmədlinin başqa kitabları kimi, bu kitabı da dilçiliyin qrammatika, leksikologiya, onomologiya, fonetika şöbələri, onların ayrı-ayrı bölmələri üçün xüsusi maraq doğuran, oyadan dəyərli faktlarla dolğundur. Bizdə belə bir düşüncə formalaşmışdır ki, zəhmətsevər alim Nazir Əhmədlinin bu araşdırmasının yetərincə anlaşılması, dərk edilməsi üçün onun nitq-üslub baxımından öyrənilməsi önəmli nəticələr verə biləcəyi kimi, həmin tapıntıda da dilçiliyimizin onomologiya, qrammatika və terminologiya şöbələri üçün yeni linqvistik faktları üzə çıxarmaq olar.

Kitabda Qazax nahiyyəsinə məxsus ölçü və çəki vahidlərinin də maraqlı linqvistik özəllikləri Azərbaycan dilinin qrammatik quruluşunda məntiqi-fəlsəfi təbiətli kəmiyyət kateqoriyasının təzahür formaları sistemini zənginləşdirməkdəyərli bilgilər verə bilər. Nazir Əhmədlinin göstərilən nahiyyədə ölçü və çəki vahidlərini arxiv materiallarına söykənərək, zərgər dəqiqliyi ilə üzə çıxara, aydınlaşdıra bilməsi onun yetkin elmi səviyyəli tədqiqatçı olması haqqında yetərincə dolğun düşüncə yaradır. Məsələn, araşdıcının molokonların yüzlük desyatindən istifadə etmələri, bu ölçü vahidinin uzunluq, en anlayışlarını bildirməsi, onun uzunluğunun 100, eninin isə 40 sajenə, yəni 4.000 kv sajenə bərabər nəzərdə tutulduğu, 1 sajenin 2.13m, 1 kv sajenin isə 4.54 k.m olduğu nəzərə alınarsa, “həmin ölçü vahidi 1.8 ha-ya bərabər idi” qənaətinə gəldiyi və s. təhlilləri həmin alimlə bağlı düşüncələrimizin doğruluğunu təsdiqləyir.

Müəllif Türklərin və Ermənilərin isə tağar adlanan ölçü vahidindən yararlandıqlarını, tağar dedikdə həm çəkinin, həm də taxılın səpildiyi bu çəkiyə uyğun əkin sahəsinin bildirildiyini, ifadə edildiyini diqqətə çatdırır. Ayrı-ayrı kəndlərdə həmin ölçünün fərqləndiyi diqqətə yönəldilir: Tatlı kəndində tağarın 30 çanaq buğdaya və ya 24 çanaq arpaya, 1 buğda çanağının 10 funta, 1 arpa çanağının isə 12 funta bərabər hesab edildiyi, araşdırıcının finrincə, 1 funtun 0.409 kq olduğu nəzərə alınsa, 1 tağar buğdanın 30x10x0.409=122.7 kq olduğu aydınlaşır.

1 desyatin ərazinin 2.400 kv sajenə və ya 9 puda bərabər sayıldığını göstərən müəllif indinin özündə də əhali arasında işlədilən “1 pud torpaq” ifadəsinin 1.09:9=0.12 ha olduğu məlumdur. 1 desyatinin 1.09 ha-ya bərabər olduğu müəyyən edilmişdi (s 37).

Nazir Əhmədlinin “Qazax nahiyyəsinin kameral təsviri” əsərində torpaqların yalnız yetərincə bol olması deyil, ailənin maddi vəziyyətinin işçi qüvvəsindən, yəni ailədə işləyə bilənlərin sayından asılılığı qeyd edilmiş, üzvləri çox olan ailənin azsaylı ailədən müqayisəedilməz dərəcədə maddi baxımdan yaxşı vəziyyətdə, zəngin olduğu göstərilmişdir. Evlənmiş oğlanlarını ayırmayıb onlarla birlikdə yaşayan ailənin varlandığı və gücləndiyi, lakin öz torpaq payı və işçi qüvvəsi ilə ayrı ailələrə bölünənlər isə çərəkləşirdi fikri irəli sürülmüşdür. Müəllif müəyyən müddətdən sonra “çərək” ailələrin yaranıb “hampa” ola bildiyi kimi, bunun əksinin də baş verə bildiyi, varlı ailələrin hörmət qazanması “hampa” sözünün də kəndlilər arasında hörmət qazanmağa başladığına səbəb olmuş, ailənin zənginliyinin əkilən torpaq sahəsinin miqdarı, kotanın olub-olmaması ilə ölçüldüyü diqqətə çatdırılmışdır. Çətinlik çəkmədən əkinə 10-12 cüt öküz və kotan, 10-a qədər əkinçi çıxarmağı bacaran ən hörmətli ailə sayıldığı bildirilmişdir. “Hampa ailənin gücünü ifadə etmək üçün bu cür ailə nümunə rolunu oynamağa başlamışdı”. Müxtəlif kəndlərdə ailə başına düşən torpaq sahəsinin müxtəlifliyi “hampa” vahidinə düşən əkin sahəsinin də müxtəlif olmasına gətirib çıxardığı diqqətə yönəldilir. Bəzi kəndlərdə hampa ailəsinə 10 desyatin, bəzisində isə 20 desyatin əkin sahəsinin düşdüyünün qeyd edildiyi, hampa gücündə olmayan ailələrin isə 78,,4, 58, ? və s. kimi hesaba alındığı və onlara mütənasib miqdarda əkin sahəsi ayrıldığı göstərilmişdir. Burada torpaqların yenidən bölüşdürülməsi qaydası olduğuna görə gücünü artıran çərək ailələrin daha artıq əkin sahəsi ala bildiyi söylənilmişdir. “Hampa-çərək”üsulunda bölgü zamanı təkcə iş qabiliyyətli kişilərin sayı deyil, həm də iş heyvanlarının və kotanın da sayının nəzərə alınması “hampa-çərək” sistemi ilə molokanlardakı torpaq bölgüsü arasındakı fərqi göstərdiyi bildirmişdir (1, 96).

Nazir Əhmədli “hampa-çərək” sisteminin 3 müsəlman kəndində də qəbul edilməsi barədə məlumat verməyi lazım bilmiş və bunların Qaraqoyunlu, Polad-Ayrım, Akuhlu (Haqqıxlı) kəndləri olduğunu bildirmişdir. Onlarda tamamilə oturaq həyat tərzisürən insanlar yaşadığını, aralarında torpaqsız ailəyə rast gəlinmədiyini bildirən müəllif 1885-ci ildə Butayerli kəndində 3, Qədirli kəndində 6, Qaraxanlı kəndində 11, Şıxlı kəndində isə 11 torpaqsız ailə qeydə alındığını demişdir (1, c 104).

Qazax nahiyyəsinin 1860-cı ilə aid kameral təsviri Poylu kəndinin mülkədar torpaqlarında yaşayan 117 dövlət kəndlisi ilə yanaşı, Knyaz Toma Andronikovun 15 mülkədar kəndlisinin qeydə alındığını və onların hamsının müsəlman türklər (azərbaycanlılar) olduğu diqqətə çatdırılmışdır. Əhalisinin əsas məşğuliyyət növü heyvandarlıq və əkinçilik olan Qazax nahiyyəsində torpaqsız ailələrdən başqa hamının taxıl əkdiyi, həmin torpaqların taxılçılıq üçün yararlı olduğuna görə əldə olunan məhsulun nəinki yerli əhalini bu məhsul növü ilə tam təmin etdiyi, hətta onu qonşu nahiyyələrin sakinlərinə də satmağa imkan verdiyi, ən çox səpilən taxılların isə buğda və arpa olduğu barədə məlumat verilmişdir (s 32).

Nazir Əhmədli o vaxtki Çar Rusiyasında taxılın məhsuldarlığı anlayışının “san” adlandırılan terminlə ifadə edildiyini yazmışdır. Bunun izahını verməkdən ötrü torpağa səpilmiş toxumun neçə dəfə artıq məhsul verməsinin müəyyənləşdirilməsinin vacib olduğu unudulmamalıdır. “San 5” torpağa səpilmiş toxumdan 5 dəfə artıq məhsul götürülməsi deməkdir qənaətinə gəlinməsi mənasını ifadə etdiyi bildirilir (s 33). Buğdanın məhsuldarlığına görə “san5”, “san6”, “san9”, “san2” və s. yazılır. Məhsuldarlıq bol olan illərdə, məsələn, 1881-ci ildə buğdanın Qazax qəzası üzrə “san9”, orta məhsuldarlığın “san6”, aclıq özünü göstərən il sayılan 1879-cu ildə isə məhsuldarlığın “san2”-yə endiyi diqqətə yönəldilir (1, c 32-33).

Qazaxlıların Peterburqda, Tiflisdə, eləcə də başqa şəhərlərdə keçirilən sərgilərdə iştirak edərək mükafatlar da qazandıqları məlumdur. Məsələn, 1885-ci ildə Peterburqda keçirilən sərgidə bir Qazaxlı türkün (Azərbaycanlının) sərgidə göstərdiyi qoyun yununa görə bürünc medal aldığı, 1860, 1861, 1863-cü illərdə Tiflisdə təşkil edilmiş sərgilərdə isə Ağqoyunlu kəndinin nümayəndələrinin arpa, Qaraqoyunluların darı, Xəlfəli və Daşkəsəmənlilərin yun cicim, Kəmərlilərin yun şala görə mükafat aldıqları diqqətə yetirilmişdir (1, c 155).

Kameral siyahıların əhalidən alınan vergilər barədə geniş məlumat əldə etməyə imkan yaratdığı, Qazax qəzasının həm dövlət, həm də mülkədar torpaqlarında yaşayan kəndliləri evbaşına alınan “başpulu” , ev heyvanlarına görə, həm də kənd təsərrüfatı məhsullarından vergi ödədiyi, bundan başqa digər müxtəlif mükəlləfiyyətlər daşıdıqları diqqətə yetirilmişdir.

Dövlət Palatasının müəyyən etdiyi evbaşına vergilərin öz miqdarına görə qeyri-bərabər və müxtəlif olduğu, mülkədar torpaqlarında yaşayan 56 kəndin sakinlərinin evbaşına vergiləri belə verdikləri göstərilməsi barədə məlumat verilmişdir (cədvəl əlavə edilir).

Kitabda vergi və rüsumlar, ölçü, çəki vahidləri barədə verilən bilgilər, aparılan riyazi əməliyyatlar həm də müəllifin riyazi biliyinin əyani göstəricisidir.

***2021***

***Yusif YUSİFOV,***
***ADPU-nun Azərbaycan Dilçiliyi Kafedrasının dosenti, ümumi dilçilik ixtisası üzrə professor***

Kredo.- 2021.- 2 iyun.- S.12.